**Müasir Azərbaycanda Boşanmaların Sayının Artması və Bu Problemlərə Gətirib Çıxaran Səbəblər**

TƏLƏBƏLƏRİN ADLARI:

Nagihan Hüseynli

Səba Paşayeva

Türkanə Əsədova

**Müəllim**: Dr. Anar Vəliyev

# MÜNDƏRİCAT

**I Giriş** ........ **3**
1.1. Arxa plan ........ 4
1.2. Problemin təyini ........ 6
1.3. Tədqiqat məqsədləri ........ 6
**2. Problem təhlili** ........ **7**
2.1. Şəhərləşmə və dəyişən sosial normalar ........ 7
2.2. Sosial media və internetin yaratdığı problemlər ........ 9
2.3. Erkən və vasitəli evliliklər ........ 11
2.4. Ailə daxili zorakılıq və ünsiyyət əksikliyi ........ 14
2.5. Sadələşdirilmiş boşanma qanunlari ........ 15
**3. Problemlərə yönəlik təkliflər** ........ **16**
3.1. Nikahdan əvvəl hazırlıq və sertifikatlaşdırma ........ 16
3.2. Ailələr üçün təkmilləşdirilmiş mediasiya və münaqişələrin həlli proqramı ........ 19
3.2.1. Milli mediasiya təlim proqramı ........ 20
3.3. Cinsi bərabərlik və maliyyə bərabərliyi maddələrini əhatə edən hüquqi nikah müqaviləsi22
**4. Təklifin qiymətləndirilməsi** ........ **24**
4.1. Hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramı ........ 24
**5. Nəticə** ........ **29**
5.1. Xülasə ........ 30
5.2. Tövsiyyələr ........ 31
**İstinadlar** ........ **30**

## I Giriş

Azərbaycan cəmiyyətində ailə institutunun mərkəzi rolu nəzərə alındıqda, bu tendensiyanın daha dərindən araşdırılması mühüm əhəmiyyət daşıyır. Əsrlər boyu ailə birliyi Azərbaycan cəmiyyətinin təməl sütunlarından biri olmuş, evlilik isə sabitlik, harmoniya və sosial bağlılıq kimi dəyərləri əks etdirmişdir. Bununla belə, son illərdə baş verən iqtisadi, sosial və mədəni dəyişikliklər bu ənənəvi qurumu ciddi şəkildə sınağa çəkir. Statistik məlumatlara görə,

boşanma hallarının sayı 2000-ci ildən 2023-cü ilə qədər dörd dəfədən çox artmışdır ki, bu da həm ailə dəyərlərində, həm də fərdi münasibətlərdə əsaslı dəyişikliklərin göstəricisidir. Bu artım bir çox mürəkkəb faktordan qaynaqlanır. Sosial liberallaşma və demokratikləşmə fərdlərə daha çox avtonomiya qazandıraraq ənənəvi ailə modellərindən uzaqlaşmağa şərait yaratmışdır. Bununla yanaşı, sosial medianın genişlənməsi, qlobal trendlərin yerli cəmiyyətə təsiri və boşanma prosedurlarının hüquqi olaraq sadələşdirilməsi də boşanma hallarının artmasını stimullaşdıran mühüm amillərdən olmuşdur. Xüsusilə şəhər yerlərində baş verən sosial və mədəni dəyişikliklər ailə institutuna təsir göstərərək, cütlüklər arasında gərginlik və münasibətlərin yenidən formalaşması ilə nəticələnmişdir. Sosial media kimi platformalar, bir tərəfdən, fərdi azadlıqları təşviq etsə də, digər tərəfdən, münasibətlərdə reallıqdan uzaq gözləntilər və ünsiyyət problemlərinə səbəb olmuşdur.

### 1.1. Arxa plan

Evlilik ənənəvi olaraq Azərbaycan cəmiyyətinin əsas sütunlarından biri kimi qəbul edilmişdir və ailə birliyi, sosial bağlılıq və sabitliyi simvollaşdırmışdır. Bununla belə, son dövrlərdə boşanma hallarının artması sosial, iqtisadi və mədəni normalarda dəyişikliklərin göstəricisidir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına görə, boşanma hallarının sayı 2000-ci ildə 5,478-dən 2023-cü ildə 21,688-ə qədər artaraq təxminən dördqat artım göstərmişdir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024). Bu rəqəmlər son otuz il ərzində boşanmaların əhəmiyyətli dərəcədə artdığının sübutudur. Bu tendensiya, keçmişdə cəmiyyətin gözləntiləri və mədəni-dini inanclarla dəstəklənən və ömürlük bağlılıq kimi görülən evliliyə baxış tərzində əhəmiyyətli bir dəyişiklik olduğunu sübut edir.

Tarixən Azərbaycanda boşanma nadir hallardan hesab olunurdu və nikahlar dini və mədəni ənənələr əsasında ömürlük bir bağ kimi qəbul edilirdi. Lakin son illərdə boşanma hallarında artımın səbəbləri daha geniş sosial-iqtisadi dəyişikliklərlə bağlıdır. 2000 - ci ilərdən sonra Azərbaycanda başlanan demokratikləşmə prosesi iqtisadi artım və sosial liberallaşma üçün imkanlar yaradaraq ənənəvi dəyərlərdə dəyişikliyə səbəb olmuşdur. Aparılan tədqiqatlar göstərir ki, demokratikləşmə və sosial azadlaşma boşanma hallarının artması ilə əlaqəlidir. Azərbaycanda bu tendensiya xüsusilə daha açıq və modernləşmiş cəmiyyətdə böyüyən gənc nəsillər arasında boşanmağa daha liberal münasibətlərin formalaşması ilə nəticələnmişdir. Bu dəyişiklik qlobal tendensiyalarla uyğun gəlir ki, burada demokratikləşmə çox vaxt ailə strukturlarında dəyişikliklər və boşanma hallarının artması ilə müşayiət olunur.

2023-cü ildə qeydə alınan statistikayaəsasən boşanma hallarının xüsusilə şəhər yerlərində artması müşahidə olunur (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024). İlk olaraq social medianın genişlənməsi və cəmiyyətin gözləntilərinin dəyişməsi nikahdaxili gərginlikləri daha da artırıb. Instagram, Facebook və TikTok kimi platformalar virtual əlaqələr yaratmaq üçün məkan təmin edir və bu, anlaşılmazlıqlar, diqqətsizlikyə yol aça bilər. Sosial media insanlara müstəqillik, cinslərarası bərabərlik və münasibətlər haqqında yeni fikirlər təqdim edir, bu isə tez-tez ənənəvi dəyərlərlə ziddiyyət təşkil edir. Xüsusilə şəhər yerlərində, bu cür tendensiyaların daha çox müşahidə olunduğu yerlərdə, cütlüklər ailələrinin və cəmiyyətin gözləntiləri ilə müasir idealları uyğunlaşdırmaqda çətinlik çəkə bilərlər. Sosial medianın əlçatanlığı insanlara münasibətlərini onlayn olaraq ideallaşdırılmış təsvirlərlə müqayisə etməyə imkan verir, bu da nikahlarda reallıqdan uzaq gözləntilər və narazılıqlar yaradır. Eyni zamanda sosial medianın geniş istifadəsi münasibətlərdə gizlilik sərhədlərini məhv edərək fərdlərin öz münasibətlərini idealizə olunmuş onlayn görüntülərlə müqayisə etməsini də asanlaşdırır.

Digər tərəfdən, Azərbaycanda hüquqi islahatlar da evliliklərin sona çatması prosesini sadələşdirərək boşanma hallarının artmasına səbəb olmuşdur. Fərdi hüquqları dəstəkləmək məqsədilə tətbiq edilən sadələşdirilmiş boşanma qanunları, cütlükləri ayrılmaqdan çəkindirən prosedur və emosional maneələri azaldıb. Bu tendensiya Azərbaycanda da müşahidə olunurş Belə ki, hüquqi islahatlardan sonra boşanma hallarında artım qeydə alınmışdır. Cütlüklər evlilik çətinlikləri ilə üzləşdikdə boşanma prosesinin daha az maneəli olduğunu bildiklərindən boşanmanı seçim kimi daha rahat qəbul edirlər. Bu, fərdi hüquqları dəstəkləsə də, təsadüfən evliliklərin sona çatma nisbətlərinin artmasına gətirib çıxarmışdır. Nəticədə isə 2023-cü ildə qeydə alınan boşanma hadisələri 90-ci illərin sonuyla müqayisədə 1,5 dəfə artmışdır (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024).

Şəhər yerlərində baş verən dəyişikliklərə baxmayaraq, kənd yerlərində ənənəvi ailə dəyərləri güclü olaraq qalır. Erkən nikahlar bəzi kənd yerlərində mədəni və iqtisadi səbəblərdən hələ də aktualdır. 2023-cü il statistikasına görə, 18 yaşdan aşağı olan qızlar arasında 223 nikah qeydə alınıb, 18-19 yaş aralığında olan qızlar arasında isə bu rəqəm 12,261-dir (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024). erkən nikahlar daha yüksək boşanma nisbətləri ilə əlaqələndirilir, çünki gənc cütlüklər uzunmüddətli münasibətləri davam etdirmək üçün emosional və maliyyə yetkinliyindən məhrum olurlar.

### 1.2. Problemin təyini

Azərbaycanda boşanma hallarının artması mühüm sosial amillərdən biridir. Boşanma yalnız cütlüklərə deyil, həm də onların ailə və çevrələrinə təsir göstərir. Boşanmanın nəticələri psixoloji sağlamlıq, iqtisadi sabitlik və sosial münasibətlər kimi amillər olmaqlaq geniş miqyasda təsir yaradır. Xüsusən də uşaqlar təhsil və emosional inkişafda kəsintilərlə üzləşə, geniş ailələr isə stress və bölünmələrdən əziyyət çəkə bilər. Ailə dəyərlərinin dərin kök saldığı bir cəmiyyətdə boşanma nisbətlərinin artması evlilik və ailə rollarının kollektiv qavrayışında dəyişikliyə işarə edir.

Hal hazırda Azərbaycanda boşanma hallarının artımı sosial-siyasi dəyişikliklər, hüquqi islahatlar və sosial media təsiri kimi müxtəlif amillərlə izah oluna bilər. Problem yalnız boşanma hallarının tezliyində deyil, bu meylin daha geniş sosial təsirlərindədir. Daha çox evliliklərin pozulması ilə ənənəvi olaraq Azərbaycan cəmiyyətinin dayağı sayılan ailə birliyinin zəifləməsi riski yaranır. Boşanma hallarının artmasının səbəblərini anlamaq həm sosial elmlər üzrə tədqiqatçılar, həm də siyasətçilər üçün böyük əhəmiyyət kəsb edir. Bu tədqiqatın nəticələri Azərbaycanda ailə dayanıqlığını dəstəkləmək məqsədilə siyasətlər formalaşdırmaq üçün istifadə edilə bilər. Məsələn, nikah öncəsi təhsil proqramlarının tətbiqi, münaqişələrin həlli bacarıqlarının təşviqi və ailə dəstək xidmətlərinin yaradılması kimi təşəbbüslər cütlüklərin münasibətlərini gücləndirə və boşanma ehtimalını azalda bilər. Əlavə olaraq, sosial medianın təsirini başa düşmək onlayn münasibətlərin ailə əlaqələrinə təsirini azaltmaq məqsədilə tədbirlər görmək üçün imkanlar yaradacaqdır.

### 1.3. Tədqiqat məqsədləri

Bu tədqiqat, Azərbaycanda boşanma hallarının artmasına səbəb olan çoxsahəli amilləri araşdırmağı hədəfləyir. Xüsusilə, məqsədlər aşağıdakılardan ibarətdir:

1. Demokratikləşmə və iqtisadi liberallaşma kimi sosial-siyasi dəyişikliklərin ailə dəyərləri və evlilik gözləntilərinə təsirini araşdırmaq.
2. Boşanma prosesini sadələşdirən hüquqi islahatların təsirini və cütlüklərin ayrılmasını asanlaşdırmasını qiymətləndirmək.
3. Sosial medianın evliliklərdə ünsiyyət, inam və münasibətlərə təsirini öyrənmək.

Araşdırmadaki hüquq və psixologiya sahəsindəki mütəxəssislərin seçimi, onların ailə münasibətləri, boşanma və ailədaxili münaqişələrin həlli sahəsində təcrübələri əsasında həyata keçirilmişdir. Hüquqşünaslar, xüsusilə ailə hüququ və mediasiya sahəsində təcrübəsi olan şəxslər

arasından seçilmişdir ki, bu da hüquqi mediasiyanın tətbiqi və evlilik müqavilələri sahəsində dəqiq hüquqi çərçivələrin müəyyən olunmasına kömək etsin. Eyni zamanda, ailə psixologiyası üzrə mütəxəssislər, boşanma sonrası psixoloji dəstək və münasibət problemlərinin idarə olunması sahəsində geniş təcrübəyə sahib olan şəxslər arasından seçilmişdir. Məqsəd, ailələrin boşanma prosesində və ya münaqişələrin həlli zamanı həm hüquqi, həm də psixoloji dəstək almasını təmin etməkdir.

Bu analiz vasitəsilə tədqiqat, Azərbaycanda modernləşmə, qloballaşma və texnologiyanın evlilik institutuna necə təsir etdiyini və boşanma hallarının artmasına necə səbəb olduğunu anlamağı təmin edəcəkdir. Tədqiqat həmçinin siyasətçilərə bu problemlərin həlli və dayanıqlı ailə strukturlarının təşviqi üçün tövsiyələr təqdim edəcəkdir.

## 2. Problem təhlili

### 2.1. Şəhərləşmə və dəyişən sosial normalar

Şəhərləşmə müasir Azərbaycanda ailə dinamikasının və cəmiyyətin gözləntilərinin yenidən qurulmasında mühüm rol oynamışdır. Bakı və Gəncə kimi şəhərlər böyüyüb modernləşdikcə, onlar nikah və boşanma ilə bağlı daha proqressiv sosial normaları qəbul etmişlər. Azərbaycanın əsas şəhərlərinin sürətli şəhərləşməsi ailə strukturlarına yanaşmanı, münasibətlərin necə formalaşdığını, qorunduğunu və dağıldığını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Şəhərləşmə Bakıda ailə həyatına daha liberal yanaşmaya gətirib çıxarıb. Boşanma artıq əvvəlki qədər damğalanmır və insanlar daha çox qənaətbəxş olmayan nikahları sonlandırmağa açıqdırlar (Bayramov, 2021).Bu mədəni dəyişiklik Bakıdakı boşanma nisbətlərinin son on ildə əhəmiyyətli dərəcədə artmasında əks olunmuşdur. Şəhər mərkəzləri genişləndikcə, fərdi müstəqillik və şəxsi xoşbəxtliyin prioritetləşdirilməsi kimi müasir dəyərlər daha çox qəbul edilir. Şəhər yerlərində nikahlar getdikcə sosial baxımdan deyil, daha çox yoldaşlıq və qarşılıqlı məmnuniyyət əsasında qurulur.

Böyük şəhərlərdən olan Gəncədə də boşanma hallarının artdığını görmüşdür. 2013-cü ildə Gəncədə 1,263 boşanma qeydə alınmışdı, 2023-cü ildə isə bu rəqəm 1,872-yə yüksələrək 48%-lik artımı göstərdi (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024). Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə də şəhərləşmə və modernləşmədən təsirlənsə də, bu şəhərdə dəyişikliklərin Bakı ilə müqayisədə daha yavaş getməsi ənənəvi dəyərlərin hələ də təsirli olduğunu göstərir. Bununla belə, Gəncədəki boşanma göstəricisi, xüsusilə sürətlə inkişaf edən şəhərlərdə nikahlara baxışın

ümumilikdə dəyişməsini göstərir. Eyni zamanda, Qazax kimi bölgələrdə boşanma göstəricilərində daha yavaş artım müşahidə olunur ki, bu da həmin bölgənin nikaha daha mühafizəkar yanaşması ilə uyğun gəlir. 2013-cü ildə Qazaxda 326 boşanma qeydə alınmışdı, 2023-cü ildə isə bu rəqəm 475-ə yüksələrək on il ərzində 45%-lik bir artımı göstərdi (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024). Bu artım əhəmiyyətli olsa da, Bakı və Gəncə kimi böyük şəhərlərdə müşahidə olunan artımlardan daha aşağıdır və bu, Azərbaycanın kənd yerlərində ənənəvi dəyərlərin davamlılığını vurğulayır. Bu bölgələrdə nikah hələ də ömürlük bir bağlılıq kimi qəbul edilir və boşanma çox vaxt uğursuzluq və ya son çarə kimi dəyərləndirilir. (Bayramov, 2021).

Nikah göstəricilərinə gəlincə, xüsusən də Qazax kimi bölgələr, nikahların sayında daha çox sabitlik qorunub. 2013-cü ildə Qazaxda 1,725 nikah qeydə alınmışdı və bu rəqəm 2023-cü ildə cüzi olaraq 1,655-ə düşmüşdür (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024) Bu cüzi azalma, boşanma hallarının yavaş-yavaş artmasına baxmayaraq, nikah institutunun bu bölgələrdə əsasən davamlı qaldığını göstərir. Buna qarşı olaraq, Bakı nikah göstəricilərində daha nəzərə çarpan bir azalma yaşamışdır; burada nikahlar 2013-cü ildə 29,654-dən 2023-cü ildə 27,310-a enmişdir (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024). Bakıda nikah nisbətlərinin azalması, həmçinin, daha çox fərdlərin evlilikdən imtina etməsi və ya alternativ tərəfdaşlıq formalarına, məsələn, birgə yaşamağa üstünlük verməsi ilə əlaqələndirilir ki, bu da urbanizasiya olunmuş cəmiyyətlərdə qlobal bir tendensiyanı əks etdirir.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu, sosial-iqtisadi problemlərin, miqrasiyanın və urbanizasiyanın Azərbaycan ailə strukturlarına, xüsusən də nikah və boşanma göstəricilərinə necə təsir etdiyini ətraflı öyrənmək üçün maraqlı bir nümunə təşkil edir. 2000-ci illərin əvvəllərində regionun kənd ərazilərində nikah göstəriciləri şəhər əraziləri ilə müqayisədə xeyli yüksək idi; bu dövrdə kənd yerlərində bağlanan nikahların sayı (2001-2005-ci illər arasında 2,272 nikah) şəhər yerlərindəkindən (1,129 nikah) təxminən iki dəfə çox idi. Bu fərq əsasən kənd mühitində ənənəvi dəyərlərin sabitliyinin nisbətən qorunub saxlanılması ilə izah olunur. Lakin 2010-cu illərin ortalarına doğru işsizlik və miqrasiya kimi iqtisadi təzyiqlər bu meylləri dəyişməyə başladı. Əmək qabiliyyətli gənclər daha yaxşı imkanlar axtarışı ilə kənd ərazilərini tərk edərək şəhər mərkəzlərinə və ya xarici ölkələrə üz tutdular ki, bu da kənd nikahlarının azalmasına və boşanmaların artmasına səbəb oldu (Bayramov, 2021).

İşsizlik regionda ailə sabitliyinə ciddi təsir edən əsas amillərdən biri kimi ön plana çıxır. Məsələn, 1995-ci ildə Quba-Xaçmazda işsizlik səviyyəsi 55.9% olduğu halda, boşanma göstəricisi

13.9% idi. 2019-cu ilə qədər kənd ərazilərində işsizlik müəyyən qədər azalsa da, miqrasiyanın sürətlənməsi demoqrafik dəyişikliklərə səbəb oldu və həm şəhər, həm də kənd ərazilərində boşanma göstəricilərini artırdı. Boşanma hallarının artması ailələrin üzləşdiyi iqtisadi gərginliklə yanaşı, fərdiyyətçilik və daha yüksək sosial gözləntiləri vurğulayan müasir şəhər həyat tərzinə uyğunlaşma təzyiqləri ilə də əlaqədardır (Bayramov, 2021).

Hökumət müdaxilələri, o cümlədən iş yerlərinin yaradılması proqramları, 2006-2010-cu illər arasında kənd nikah göstəricilərində müvəqqəti yaxşılaşma təmin etdi; bu dövrdə kənd yerlərində nikahların sayı 3,038-ə yüksəldi. Bununla belə, həmin dövrdə boşanmalar da 1.5 dəfə artaraq kənd yerlərində 190-a çatdı. Bu, iqtisadi müdaxilələrin qısamüddətli dövrdə müəyyən təsir göstərdiyini, lakin ailə strukturlarına təsir edən daha dərin sosial və mədəni dəyişiklikləri aradan qaldıra bilmədiyini göstərir. Bundan əlavə, məşğulluq və infrastruktur baxımından üstünlüyə malik olan şəhər ərazilərində də boşanma göstəricilərinin 2010-cu ilə qədər 20.8%-ə qədər artdığı müşahidə edildi. Bu, iqtisadi təzyiqlərin və nikaha dair dəyişən mədəni baxışların ikili təsirini əks etdirir (Bayramov, 2021).

Bu tendensiyaların demoqrafik nəticələri olduqca dərin xarakter daşıyır. Miqrasiya kənd icmalarına yalnız nikah yaşında olan insanların azalması ilə deyil, həm də "demoqrafik qocalma" prosesini sürətləndirərək kənd ərazilərində daha çox yaşlı əhalinin qalması ilə təsir edir. Miqrasiya, işsizlik və urbanizasiyanın birgə təsiri, kənddən şəhərə miqrasiyanın hər iki mühitdə boşanmaları artırdığı və ailə strukturlarını zəiflədiyi bir dövri problem yaratmışdır. Ümumilikdə, bu dinamika həm kənd inkişafını, həm də urbanizasiyanın təzyiqlərini balanslaşdırmağa yönəlmiş sosial-iqtisadi siyasətlərin vacibliyini vurğulayır (Bayramov, 2021).

### 2.2.Sosial media və internetin yaratdığı problemlər

Azərbaycanda sosial media, xüsusən gənc nəsil arasında həyatın ayrılmaz hissəsinə çevrilmişdir. Instagram, Facebook və WhatsApp kimi platformalar insanlara öz həyatlarını paylaşmaq, başqaları ilə əlaqə qurmaq və dünya miqyasında müxtəlif məzmunlara çıxış imkanı verir. Lakin bu platformalar evlilik münasibətlərinə yeni dinamikalar gətirərək qısqanclıq, etimadsızlıq və real olmayan gözləntilərin yaranmasına səbəb olmuşdur. Sosial media münasibətlərdə gizliliklə bağlı problemlər yaradır, çünki tərəfdaşlar bir-birinin onlayn fəaliyyətini izləməyə və ya başqaları ilə ünsiyyətini məhdudlaşdırmağa çalışa bilirlər. Bu davamlı nəzarət etimadsızlıq dövrünü gücləndirir və bir tərəfdaş öz azadlığının məhdudlaşdırıldığını hiss etdikdə, ciddi münaqişələrə gətirib çıxara bilər. Psixoloq xatirə Səfərova vurğulayır ki, "Sosial medianın

təsiri altında, tərəfdaşlar arasında etimadsızlıq hissləri artır, bu da çox zaman münasibətdə xoşbəxtliyi azaldır və ayrılma ehtimalını yüksəldir" (Səfərova, 2024). Bu, xüsusən də sosial medianın real həyatda münasibətlərdə çatışmayan müəyyən təməl emosional ehtiyacların qarşılanmasına imkan yaratdığı gənc cütlüklərdə daha aydın müşahidə olunur. Sosial media insanların evlilikdən kənar əlaqələri qoruyub saxlamasına imkan verir ki, bu da bəzən emosional xəyanətə və hətta fiziki münasibətlərə yol açaraq ailə sabitliyini təhdid edir. Sosial media həm də münasibətlərdə gizliliklə bağlı problemlər yaradır, çünki tərəfdaşlar bir-birinin onlayn fəaliyyətini izləməyə və ya başqaları ilə ünsiyyətini məhdudlaşdırmağa çalışa bilirlər. Bu davamlı nəzarət etimadsızlıq dövrünü gücləndirir və bir tərəfdaş öz azadlığının məhdudlaşdırıldığını hiss etdikdə, ciddi münaqişələrə gətirib çıxara bilər.Vəkil Rəşad Əliyev deyir k, "Nikahın pozulması ilə bağlı müraciət edənlərin əksəriyyəti qadınlardır, xüsusilə qısqanclıq və ailədaxili münasibətlərin sosial mediada əks olunması problemlərə yol açır" (Əliyev, 2024). Eyni zamanda Respublika Psixiatriya Xəstəxanasının psixoloqu İlahə Dadaşovanın da qeyd etdiyi kimi, boşanmaların artmasının əsas səbəbləri arasında xəyanət və üçüncü şəxslərin müdaxiləsi xüsusi yer tutur. O, bildirir ki, "üçüncü şəxslərin ailəyə müdaxilə etdiyi hallarda, demək olar ki, 90 faiz hallarda bu, boşanma ilə nəticələnir" (Dadaşova, t.y).

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildəki yeni evliliklərin yarıdan çoxu 30 yaşına qədər olan şəxsləri əhatə etmişdir ki, bu demoqrafiya xüsusilə sosial mediadan aktiv istifadə edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024). Bundan əlavə, sosial media "sosial müqayisə" mühiti yaradır ki, nəticədə insanlar öz həyatlarını onlayn olaraq idealizə edilmiş həyatlarla müqayisə edirlər. Gənc nəsil daha çox sosial mediada mükəmməl münasibətlər gördükcə, öz əlaqələrində reallıqdan uzaq gözləntilər formalaşır və bu, əlaqədə narazılıq hissini artırır. Eyni zamanda Vəkil Rəşad Əliyev deyir ki, sosial medianın təsiri altında, xüsusən də qadınlar cəmiyyətin təlqin etdiyi "ideal ailə" modelinə uyğun olmayan həyatlarından narazı qalaraq boşanma qərarı verirlər (Əliyev, 2024). Azərbaycanda ailələrin evliliklə bağlı yüksək gözləntilərinin olduğu bir mühitdə sosial media bu təzyiqləri daha da gücləndirir, çünki fərdlər davamlı olaraq real vəziyyəti əks etdirməyən "mükəmməl" münasibətlərə məruz qalırlar.Bu fenomen xüsusilə daha gənc evliliklərdə problematikdir, çünki tərəfdaşlar bu qeyri-kafi hisslər və qısqanclıqla baş etmə təcrübəsinə malik olmaya bilərlər. Bu qrupun sosial müqayisə qarşısında daha yüksək həssaslığı, cavabsız qalan gözləntilər və narazılığın evliliklərin dağılmasına səbəb olduğu üçün boşanma hallarının artmasına səbəb ola bilər.

### 2.3.Erkən və vasitəlievliliklər

Azərbaycanda erkən evlilik bir çox icmalarda, xüsusən də kənd yerlərində mədəni cəhətdən dəstəklənən bir təcrübə olaraq qalır. Erkən evlilik qərarlarında ailə təsiri mühüm rol oynayır. Bir çox gənc şəxs cəmiyyətin və ya ailənin gözləntilərinə görə deyil, şəxsi seçimlə deyil, erkən yaşda evlənir ki, bu da qarşılıqlı anlaşma və uyğunluq əsasında qurulmamış evliliklərə gətirib çıxara bilər.

Regional Psixoloji Mərkəzin psixoloqu Xatirə Səfərovanın sözlərinə görə, boşanmalar ən çox ailə düzgün motivlər əsasında qurulmayanda baş verir: "Belə ki, hər iki tərəfin evlənmək ərəfəsində qarşı tərəfi mütləq tanıması lazımdır. Sadəcə, qısa bir tanışlıq əsasında qurulan ailələrdə boşanma halları daha çox baş verir. Bundan başqa ailədə müdaxilələri, o cümlədən qayınanaların gəlinə qarşı müxtəlif düşüncələrdə olmasını da göstərmək olar. Bu, bir növ qısqanclıq xarakteri daşıyır və bu cür qayınanaların belə münasibəti də onun həyat yoldaşının olmamasından, yaxud da onunla arasında ciddi problemlərin olmasından qaynaqlanır. Qayınana öz məsələsi ilə bağlı obyekt olaraq gəlini seçir və iradlarını gəlinin üzərində həyata keçirir".

Kənd yerlərində ənənəvi ailə dəyərləri və gender rolları ailə sabitliyinin qorunmasına yardım etsə də, qadınların təhsil hüququnu və qərar qəbul etmək imkanlarını məhdudlaşdırır. Təhsil üzrə ekspert Kamran Əsədov vurğulayır ki, "Kəndlərdə qızların təhsildən yayınmasının əsas səbəblərindən biri onların erkən yaşda nikaha daxil olmasıdır. Məsələn, bəzi kəndlərdə səkkizinci sinifdə oxuyan qızlar nişanlanır və bu da onların məktəbə davamiyyətini azaldır" (Əsədov, 2024).

Təhsil üzrə ekspert Kamran Əsədov:

İlk növbədə qeyd edim ki, təkcə paytaxtda deyil, respublikaının ən ucqar dağ rayonlarında müasir standartlara cavab verən məktəblər fəaliyyət göstərir. Həmin məktəblərdə yüksək səviyyədə təhsil əldə edilməsi məqsədilə hər cür şərait yaradılıb, müasir avadanlıqla təmin edilib. Təəssüf ki, bütün bunlara baxmayaraq, hələ də orta məktəblərimizdə bir sıra çatışmazlıqlar davam etməkdədir. Narahatedici məqam ondan ibarətdir ki, həmin problemlər təhsil sahəsində əldə edilən bütün uğurları gözdən salır. Özü də bunlar subyektiv səbəblərdən yaranan problemlər olduğundan onları aradan qadırmaq elə də çətinlik yaratmır. Sadəcə, bunun üçün yaranmış mühiti aradan qaldırmaq kifayətdir ki, məktəblərdə normal tədrisi həyata keçirmək mümkün olsun.

Söhbət region məktəblərində qızların təhsildən yayınmasından gedir ki, artıq bu problem kütləvi hal almaqdadır. Məlumat üçün qeyd edim ki, xüsusən kənd rayonlarında qızların təhsilə davamiyyəti olduqca aşağı səviyyədədir.

Apardığımız araşdırmalardan məlum olur ki,  kənd yerlərində qızların təhsildən yayınması bir sıra səbəblərlə bağlıdır. Bu səbəblərin kökündə isə insanların maddi ehtiyaclarının ödənilməsi durur. Qeyd edim ki, ən çox hallarda yuxarı sinif şagirdlərinin məktəbə gəlməsi problemə çevrilir ki, bu da qızların erkən yaşda nikaha daxil olması ilə əlaqədardır. Kənd yerlərində qızlar adətən səkkizinci sinifdə oxuyarkən nişanlanır ki, bununla da onların təhsil alması arxa plana keçir. Belə hallar respublikanın şimal və cənub rayonlarında daha geniş yayılıb. Elə hallar olur ki, hətta qızın nişanlısı onun yazı işi yazmaqdan ötrü məktəbə getməsinə irad tutur. Beləliklə, qızlar formal olaraq orta məktəbdə təhsil alırlar. Qızların təhsildən yayınmasının digər səbəbi valideynlərin laqeydliyi ucbatından baş verir ki, bunun da sorğu-sualını aparan yoxdur. Belə ki, kiçik ticarətlə məşğul olan valideyinlər 12-13 yaşlı qızlarını dükanda işləməyə cəlb edirlər ki, bu da onların gündəlik həyat tərzinə çevrilir.

Valideynlər isə özləri əlavə gəlir əldə etmək məqsədilə başqa işlə məşğul olurlar. Üçüncü bir səbəb məktəb yaşlı qızların ailə təsərrüfatında işə cəlb edilməsidir ki, belə hallar daha çox aran rayonlarında genişlənib. Kiçik yaşlı qız uşaqları fermer təsərrüfatlarında pambıq, üzüm yığır, yaxud tarla işlərində çalışırlar. Məhz bu səbəbdən regionlarda qızların ali təhsil alması müşkül məsələyə çevrilib. Dövlət İmtahan Mərkəzinin məlumatına görə, regionlardan ali təhsil almaq üçün sənəd verən qızların sayı oğlanlardan dəfələrlə azdır. Hətta Lerik və Yardımlı kimi dağ rayonlarından olduqca az sayda qızlar ali təhsil almaq üçün sənəd verirlər.

Hər il DİM-in cari tədris illəri üçün ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun elmi-statistik təhlillərinə baxanda biz bu mənzərəni açıq şəkildə görürük. Belə ki, məktəblərdə 9-cu sinifdə qızların sayı normal olsa da, 11-ci sinifdə qızların sayı kəskin azalır.

Son illərin rəqəmlərinə baxanda görürük ki, ölkənin Aran, Muğan və Cənub zonalarında qadınların təhsildən yayınması faktları mövcuddur. Xüsusilə Saatlı, Sabirabad, İmişli, Beyləqan, Astara, Lerik, Yardımlı rayonlarında demək olar ki, qızlar təhsildən uzaqlaşıblar. Eyni problem Bakı kəndlərində də hökm sürməkdədir.

Qızların təhsildən yayınması ilə bağlı apadığım tədqiqatlar göstərir ki, Azərbaycanda qızların təhsildən yayınmasında erkən nikah faktoru böyük rol oynayır. Çünki təhsildən yayınan

qızlar erkən ailə qururlar. Qanunvericilikdə erkən nikaha təhrik etmə ilə bağlı azadlıqdan məhrum etmə və yüksək məbləğdə cərimənin təyini belə halların qarşısını qismən də olsa alır. Amma təəssüf ki, hələ belə hallar qalmaqdadır. Elə təhsildən yayınma ilə bağlı statistikanı böyüdən səbəb də nikahdan kənar doğulan uşaqlardır. Nikahdan kənar uşaqların çoxu isə erkən nikahlardan yaranır. 2013-2021- ci illərdə nikahdan kənar doğulan uşaqların sayı 32 min olub. Onların 30-35 faizi məhz erkən nikahın payına düşür. Bu isə təhsildən yayınma hallarına gətirib çıxardır.

Təəsüf ki, rəqəmlər vəziyyətin ürək açan olmadığını göstərir. Halbu ki, qanunvericilikdə, cinayət məcəlləsinddə konket olaraq buna görə ciddi məsulliyyət, cəza nəzərdə tutulsa da, hələ indiyə qədər bu həyata keçrilməyib.

Bu valideyinlər ilk növbədə vətəndaşın konsitutsiuon hüququnu pozurlar. Belə ki, Konstitusiyanın 42 – ci maddəsinə görə hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Onlar qızlaının bu hüququnu əlindən alırlar.

İnzibati xətalar, cinayət məcəlıəsində hətta valideyinlərin valideyinlik hüququndan məhrum edilməsi, hətta azadlıqdan məhrum edilməsi nəzərdə yuylsa da, aidiyyəti qrumlar bu məsələdə susurlar (Əsədov, 2024).

Bu problem təkcə kənd yerlərində deyil, bəzi Bakı kəndlərində də müşahidə olunur. Erkən nikah səbəbindən təhsildən yayınan qızların sayı son illərdə kəskin artmışdır. Dövlət İmtahan Mərkəzinin (DİM) məlumatına görə, kənd yerlərində 9-cu sinifdə təhsil alan qızların sayı 11-ci sinifdə ciddi şəkildə azalır, bu isə onların erkən nikahlarla əlaqəli təhsildən uzaqlaşdırıldığını göstərir (Əsədov, 2024). Əlavə olaraq, Əsədov qeyd edir ki, "Kənd yerlərində valideynlər, əsasən maddi ehtiyacları qarşılamaq üçün qızlarını ya ticarət, ya da təsərrüfat işlərinə yönəldir. Bu hallar, xüsusilə Lerik, Yardımlı və digər dağ bölgələrində geniş yayılmışdır" (Əsədov, 2024). Bu problemlər həm təhsil hüququnun pozulması ilə nəticələnir həm dı erkən nikahdan doğulan uşaqların sayını atrtırır.

Ailə təsiri həm də cütlüklərin münaqişələri müstəqil şəkildə həll etmək imkanını məhdudlaşdıra bilər, çünki geniş ailə üzvləri mübahisələrə müdaxilə edərək evlilikdə gərginliyi artıra bilər. Azərbaycan mədəniyyətində ailə birliyi və ənənələrə güclü vurğu bəzən cütlüklərin şəxsi sərhədlər və problem həll etmə bacarıqlarını inkişaf etdirməsinə mane olur. Bu müstəqillik çatışmazlığı narazılığa gətirib çıxara bilər və nəticədə, cütlüklər yetkinləşdikcə və evliliklərində xarici təzyiqlərin rolunu sorğuladıqca boşanma riskini artıra bilər.

### 2.4. Ailə daxili zorakılıq və ünsiyyət əksikliyi

Ailə daxili zorakılıq, xüsusilə iqtisadi cəhətdən asılı olan qadınlar arasında geniş yayılmışdır. Rəşad Əliyev, ailə hüququ üzrə ekspert, bu vəziyyəti belə izah edir: "Ailə daxili zorakılıq xüsusilə iqtisadi asılılıqda olan qadınlar arasında daha çox yayılır. Bu problem cəmiyyətdə boşanma hallarının artmasının əsas səbəblərindən biridir" (Əliyev, 2024). İqtisadi asılılıq qadınların zorakılığa məruz qalmasına baxmayaraq, ailəni tərk edə bilməməsinə səbəb olur. Bu vəziyyət daha çox kənd yerlərində və ənənəvi gender rollarının dominant olduğu mühitlərdə müşahidə olunur.

Eyni zamanda, bu zorakılığın əsas səbəblərindən biri olan erkən nikah da diqqət mərkəzindədir. "Erkən nikahda olan gənc qadınların əksəriyyəti ailədaxili zorakılığa məruz qalır. Bu qadınlar, həm emosional, həm də maliyyə baxımından yetkin olmadıqları üçün ailədə zorakılığa qarşı lazımi sosial və hüquqi resurslardan istifadə edə bilmirlər (Əliyev, 2023). Erkən yaşda nikaha daxil olan qadınlar, təhsil səviyyələrinin aşağı olması və iqtisadi cəhətdən həyat yoldaşlarına tam asılı olmaları səbəbindən, hüquqlarını qorumaqda çətinlik çəkirlər. Bu vəziyyət onların daha çox zorakılığa məruz qalmalarına və nəticədə emosional və fiziki sağlamlıqlarının ciddi şəkildə pozulmasına gətirib çıxarır.

Digər tərəfdən sağlam ünsiyyət cütlüklər arasında güclü münasibətlərin əsasını təşkil edir. Lakin Azərbaycanda bir çox ailədə bu dinamika çatışmır. Təcrübəli ailə məsləhətçiləri qeyd edirlər ki, problemlərin həll edilməsində dialoqun olmaması münasibətlərdə emosional boşluq yaradır və bu da zorakılıq hallarını daha da artırır. Ünsiyyət çatışmazlığı yalnız ailə daxilində zorakılıq riskini artırmaqla kifayətlənmir, həm də cütlüklərin birgə problemləri həll etmək bacarıqlarını məhdudlaşdırır.

Azərbaycanda ailələrdə ünsiyyət problemləri bir çox hallarda ənənəvi gender rollarından qaynaqlanır. Kişilər çox vaxt ailənin başçısı rolunda çıxış edir və ailədaxili qərarların əsas hissəsini öz üzərlərinə götürürlər. Bu vəziyyət qadınların fikirlərinin nəzərə alınmamasına və ailə problemlərinin qarşılıqlı şəkildə həll edilməsinə mane olur. Zaman keçdikcə, bu ünsiyyət çatışmazlığı cütlüklər arasında emosional soyuqluq yaradır, bu isə daha geniş miqyasda ailə daxilində zorakılığın artmasına gətirib çıxarır. Ünsiyyət çatışmazlığı əsasən təhsil səviyyəsi aşağı olan ailələrdə daha çox rast gəlinir. Qadınların təhsil səviyyəsinin aşağı olması onların öz emosiyalarını və fikirlərini ifadə etməkdə çətinlik çəkməsinə səbəb olur. Digər tərəfdən, kişilərin

emosional problemləri həll etmək üçün açıq ünsiyyət bacarıqlarına sahib olmaması ailə daxilində yaranan münaqişələrin həll edilməsinə mane olur və bu vəziyyət çox vaxt zorakılıqla nəticələnir.

Ailə daxili zorakılıq, boşanma hallarının artmasında əsas rol oynayan faktorlardan biridir. Zorakılığa məruz qalan qadınların əksəriyyəti ya boşanma haqqında müraciət edir, ya da bu problemi hüquqi çərçivədən kənar həll etməyə çalışır (Səfərova, 2010). Lakin, çox vaxt zorakılığa məruz qalan qadınlar, sosial dəstəyin olmaması səbəbindən ailəni tərk etməkdən çəkinir. Bunun səbəbi həm də qadınların iqtisadi asılılığı və cəmiyyətdə zorakılıq qurbanlarına qarşı mövcud olan damğadır. Boşanmaların artmasında zorakılıqla yanaşı, cütlüklərin emosional baxımdan bir-birinə dəstək olmaması da mühüm amildir. Psixoloq Xatirə Səfərova qeyd edir ki, "Cütlüklər arasında emosional dəstəyin olmaması münasibətləri zəiflədir və cütlüklər arasında yaranan problemlərin həlli daha da çətinləşir. Bu vəziyyət çox vaxt ailə birliyinin pozulması ilə nəticələnir" (Səfərova, 2010).

### 2.5. Sadələşdirilmiş boşanma qanunlari

Azərbaycanda Ailə Məcəlləsi çərçivəsində aparılan hüquqi islahatlar, xüsusilə azyaşlı uşaqları olmayan hallarda boşanma prosesini əhəmiyyətli dərəcədə sadələşdirmişdir. Ailə Məcəlləsinin 17.1-ci maddəsinə əsasən, yetkinlik yaşına çatmamış uşaqları olmayan cütlüklər qarşılıqlı razılıq əsasında müvafiq icra hakimiyyətində nikahlarını sona çatdıra bilərlər və bu, əvvəllər tələb olunan uzun məhkəmə prosedurlarını aradan qaldırır (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 17.1). Bu hüquqi çərçivə, şəxsi azadlıq və fərdi hüquqların müdafiəsini vurğulayan beynəlxalq tendensiyalarla uzlaşır, xüsusilə narazı və ya məhdudlaşdırıcı evlilikdən çıxmaq istəyənlər üçün. Bununla belə, bu islahatlar həm də prosedur və psixoloji maneələri azaldaraq boşanmanı daha əlçatan və sosial cəhətdən qəbul edilən hala gətirməklə boşanma hallarının artmasına səbəb olmuşdur.

Bu sadələşdirmə prosesi, evlilikdə çətinliklərlə üzləşən cütlükləri boşanmanı seçməyə təşviq edə bilər, çünki qanun boşanma üçün formal maneələri minimuma endirmişdir. Bu təsir Azərbaycanda da müşahidə olunur; son islahatlardan sonra boşanma hallarında artım qeydə alınmışdır, çünki fərdlər artıq şəxsi məmnuniyyəti ənənəvi ailə öhdəliklərindən üstün tutmağa daha çox meyillidirlər.

Sadələşdirilmiş boşanma qanunlarının tətbiqi, Azərbaycan cəmiyyətində kollektiv və ailə mərkəzli dəyərlərdən fərdiyyətçiliyə doğru geniş dəyişiklikləri əks etdirir. Ailə Məcəlləsinin 17.1-ci maddəsində də qeyd olunduğu kimi, qanun indi azyaşlı uşaqlar olmadıqda qarşılıqlı razılığın boşanma üçün məhkəmə müdaxiləsi olmadan kifayət etdiyini bildirir (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 17.1). Bu dəyişiklik, xüsusən gənc nəsil arasında fərdi rifah və müstəqilliyə üstünlük verən bir mühit yaratmışdır və onlar evliliyi şəxsi məmnuniyyətlə əlaqələndirilən bir münasibət kimi görürlər.Gənclər şəxsi azadlığa üstünlük verdikcə, evlilik fərdi gözləntilərə cavab vermədikdə sona çatan bir tərəfdaşlıq kimi formalaşır. Ailə Məcəlləsinin 17.2-ci maddəsində göstərildiyi kimi, müəyyən şərtlər altında məhdud prosedur maneələri olmadan nikahın pozulmasına icazə verən yanaşma bu dəyişimi daha da möhkəmləndirir (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 17.2).Bununla belə, məhkəmənin müdaxiləsini tələb edən işlərdə, xüsusən də uşaqlar və ya əmlak mübahisələri ilə bağlı boşanma müddəti işin mürəkkəbliyindən asılı olaraq iki aydan beş aya qədər dəyişə bilər. Vəkil Qulam İsmayılzadənin sözlərinə əsasən, hər iki tərəfin boşanma şərtləri ilə razılaşdığı hallarda, məhkəmə tez-tez bir ilkin dinləmə, sonra əsas dinləmə keçirir və nəticədə yekun qərar verilir ki, bu da boşanmadı çox əlçatan edir (İsmayilzade, 2024). Bununla belə, tərəflərdən biri boşanmaya etiraz edərsə, məhkəmə ər-arvad arasında potensial həll üçün üç aya qədər barışıq müddəti verə bilər (İsmayilzade, 2024).Azərbaycanda sadələşdirilmiş boşanma qanunları fərdi müstəqilliyi gücləndirsə də, fərdiyyətçiliyə və şəxsi məmnuniyyətə yönələn dəyişimin təsiri altında boşanma hallarının artmasına da səbəb olmuşdur. Evlilik daha çevik bir institut kimi formalaşdıqca, təsirləri fərdi cütlüklərdən kənara çıxaraq ailə strukturlarına və sosial rifah sistemlərinə təsir edir. Bu səbəbdən, fərdi hüquqlar və cəmiyyətin dəstəyi arasında balansın qorunması vacibdir.

## 3. Problemlərə yönəlik təkliflər

### 3.1.Nikahdan əvvəl hazırlıq və sertifikatlaşdırma

Azərbaycanda boşanma hallarının artmasının qarşısını almaq və ailə sabitliyini təmin etmək üçün hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramının həyata keçirilməsi zəruridir. Bu proqram ölkə daxilində ailələrin üzləşdiyi müxtəlif çətinliklərə uyğunlaşdırılmış qanunvericilik islahatlarını, psixoloji müdaxilələri və iqtisadi dəstəyi əhatə edən holistik yanaşmanı tələb edir. Ailə məsləhət mərkəzləri, maliyyə yardımı, ictimai maarifləndirmə kampaniyaları və nikahdan sonrakı dəstəklərə diqqət yetirərək, proqram ailə institutlarını möhkəmləndirmək və davamlı münasibətləri təşviq etmək məqsədi daşıyır. Ailə məsləhət mərkəzləri münasibətlərin müxtəlif

mərhələlərində cütlüklərə və ailələrə psixoloji və emosional dəstək göstərməkdə mühüm rol oynayır. Azərbaycanın Ailə Məcəlləsinin 19 və 21-ci maddələrinə əsasən, ailə münasibətləri qarşılıqlı anlaşma və hörmət əsasında qurulmalıdır. Bu mərkəzlər ünsiyyət seminarları, münaqişələrin həlli sessiyaları və valideynlik üzrə təlimlər kimi xidmətlər təklif edərək bu dəyərləri gücləndirə bilər. Boşanma statistikasına görə, anlaşılmazlıqlar və ünsiyyət çatışmazlığı 2023-cü ildə boşanmaların təxminən 32%-nin əsas səbəbi olmuşdur (Dövlət Statistika Komitəsi, 2024). Xüsusilə, ənənəvi normaların və dəstək resurslarına məhdud çıxışın ailə problemlərini ağırlaşdırdığı kənd ərazilərində məsləhət xidmətləri təsirli ola bilər.

Məsələn, "Maximum Hüquq Mərkəzi"nin təcrübəsi göstərir ki, vaxtında ailə məsləhəti ilə müdaxilə uzun müddətdir davam edən münaqişəni həll edərək boşanmanın qarşısını ala bilmişdir. Bundan əlavə, bu mərkəzlər gənc cütlüklərdə potensial problemlərin erkən mərhələdə müəyyənləşdirilməsi kimi profilaktik tədbirlər tətbiq edə bilər. Xüsusilə boşanma hallarının ictimai qınaq səbəbindən nisbətən az olduğu kənd ərazilərində bu xidmətlərin genişləndirilməsi gizli ailə qeyri-sabitliyi hallarını azaltmağa və ümumi ailə rifahını yaxşılaşdırmağa kömək edər.

İqtisadi çətinliklər ailədaxili münaqişələrin əsas səbəbi olmaqla yanaşı, 2023-cü ildə boşanma hallarının çoxunda maliyyə gərginliyi əsas amil kimi göstərilmişdir (Bagirova, 2024). Maliyyə savadlılığı proqramları cütlükləri ev təsərrüfatı büdcəsini idarə etmək, gələcək ehtiyaclar üçün qənaət etmək və fövqəladə hallarda maliyyə problemlərini həll etmək sahəsində maarifləndirə bilər. Azərbaycanın Ailə Məcəlləsinin 32-ci maddəsi birgə mülkiyyəti vurğulasa da, maliyyə töhfələri və resurs bölgüsü ilə bağlı mübahisələr ciddi münaqişələrə səbəb olur. Bu problemləri həll etmək üçün hökumət aşağı faizli ipoteka kreditləri, məşğulluq proqramları və peşə təlimləri kimi hədəflənmiş tədbirlər təqdim edə bilər. "Caspian Hüquq Mərkəzi"nin məlumatlarına görə, yeni ailələrə mənzil yardımı boşanma ehtimalını 20% azaldır (Caspian Hüquq Mərkəzi, t.y). Bundan əlavə, uşaq baxımı və səhiyyə xərcləri üçün subsidiyalar iqtisadi çətinliklərlə üzləşən ailələr üçün böyük rahatlıq təmin edə bilər. Bu təşəbbüslər ailələrə iqtisadi dəstək verməklə yanaşı, evliliklərdə sabitlik və əməkdaşlığı təşviq edir.

Hüquqi maarifləndirmə seminarlari ailə quracaq şəxslər üçün evlilik və ailə həyatına dair, eyni zamanda, əmlak hüquqlarına dair məsələlər haqqında məlumatlandırma məqsədi daşıyır. Bu cür maarifləndirmə, gələcək cütlüklərin evliliklə bağlı hüquqlarını və vəzifələrini başa düşmələrinə, olası hüquqi problemlərlə qarşılaşmalarının qarşısını almağa kömək edir. Bu kimi

hüquqi maarifləndirmə tədbirləri, ailə quracaq şəxslərə evlilik və ailə həyatına dair daha məlumatlı və bilinçli qərarlarverməkdə kömək edə bilər.

İctimai maarifləndirmə kampaniyaları ailə birliyini gücləndirmək və cəmiyyətdəki mənfi təsirləri aradan qaldırmaqda mühüm əhəmiyyətə malikdir. Sosial medianın artan təsiri münasibətlər üçün qeyri-realist gözləntilər yaradır ki, bu da real həyatda nikahlardan narazılıqla nəticələnir. Effektiv ünsiyyət, birgə məsuliyyətlər və münaqişələrin həlli mövzularına fokuslanan kampaniyalar bu narrativlərin qarşısını ala bilər. Ailə Məcəlləsinin 18 və 19-cu maddələrində nikahlarda qarşılıqlı hörmət və anlaşmanın vacibliyi vurğulanır ki, bu prinsiplər maarifləndirmə kampaniyaları vasitəsilə gücləndirilə bilər.

Məsələn, sosial şəbəkələr və yerli televiziya şəbəkələri kimi platformalardan istifadə edərək, mədəniyyətə uyğun mesajlarla gənc auditoriyanı hədəfləmək olar. Eyni zamanda, ictimai müzakirələr və seminarlar kimi icma əsaslı proqramlar ailə problemləri ilə bağlı açıq dialoqu təşviq edə bilər. Azərbaycan da bu uğuru təkrarlayaraq, ənənəvi dəyərlərlə müasir gözləntilər arasında tarazlığı təmin etmək üçün mədəni və dini liderlərlə əməkdaşlıq edə bilər.

Nikahdan sonrakı dəstək sistemləri boşanmanın iqtisadi və psixoloji təsirlərini, xüsusilə tək valideynlər və uşaqlar üçün azaltmaq baxımından vacibdir. Ailə Məcəlləsinin 77-ci maddəsinə görə, qəyyumluq qərarları uşağın maraqlarını üstün tutur. Lakin boşanmaların 70%-dən çoxunda qəyyumluğu qazanan analar ciddi maliyyə və emosional çətinliklərlə üzləşir (Bagirova. 2024). Bu çətinlikləri aradan qaldırmaq üçün proqram subsidiyalı uşaq baxımı, tək valideynlər üçün əlçatan mənzil və onların ehtiyaclarına uyğun iş imkanlarına çıxışı əhatə etməlidir. Valideynlər və uşaqlar üçün psixoloji məsləhət xidmətləri, boşanmanın emosional təsirlərini azaltmaq və uşaqların inkişafı üçün dəstək təmin etmək məqsədilə vacibdir. Araşdırmalar göstərir ki, boşanmış ailələrdən olan uşaqlar akademik və sosial çətinliklər yaşama ehtimalını 30% artırır (Maximum Legal Center, tarixsiz). Həmçinin, birgə valideynlik təlimləri boşanmış cütlüklərin uşaqların tərbiyəsində əməkdaşlıq etməsinə kömək edərək uzunmüddətli mənfi təsirləri azalda bilər.

"Nikah hazırlığı proqramları sağlam və dayanıqlı ailə quruluşunun formalaşmasında mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, strukturlaşdırılmış evliliköncəsi təhsil alan cütlüklər arasında boşanma riski üçdə bir qədər azalır. Azərbaycan bu sahədə maliyyə idarəetməsi, münaqişələrin həlli və valideynlik gözləntiləri kimi əsas mövzuları əhatə edən məcburi nikah hazırlığı proqramlarını həyata keçirə bilər. Bu proqramlar, cütlüklərin ailə həyatının

məsuliyyətlərini daha yaxşı dərk etmələri üçün nikahın qeydiyyatı zamanı tələb olunan sertifikatla başa çatmalıdır.

Bu hazırlıq mərhələli yanaşma ilə təşkil edilə bilər:
• **Maarifləndirmə sessiyaları:** Məktəblərdə və universitetlərdə erkən yaşdan münasibətlərin dinamikası haqqında məlumatlılığı artırmaq.
• **Evliliköncəsi təlimlər:** Nişanlı cütlüklər üçün onların ehtiyaclarına uyğun praktiki dərslər və təlimatlar təqdim etmək.

Nikah öncəsi hazırlıq proqramlarının məcburi xarakter daşımaması üçün, bu təlimlər cütlüklər üçün tövsiyə edilən bir sistem şəklində təqdim olunmalıdır. Məsələn, bu təlimləri tamamlayan cütlüklərə dövlət tərəfindən müəyyən vergi güzəştləri, güzəştli ipoteka və ya sosial dəstək mexanizmləri təqdim edilə bilər. Bundan əlavə, təlimlər müxtəlif yaş qruplarına uyğunlaşdırılaraq, universitet tələbələri və iş həyatına yeni başlayanlar üçün daha erkən mərhələlərdə təqdim edilə bilər. Bu yanaşma proqramın qəbul olunmasını asanlaşdıracaq və insanların 30lu yaşında evlənməyə qərar verdikdə irəliləyən ya təlimlərə gecikməsinin qarşısını alacaqdır. Təlimlər ailə münasibətləri, hüquqi hüquqlar və psixoloji dəstək kimi mövzuları əhatə edəcək və fərqli yaş qruplarına uyğunlaşdırılacaqdır. Gələcəkdə ailə dayanıqlığını artırmaq üçün bu proqramların erkən yaşlarda (məsələn, universitet dövründə) təqdim edilməsi də nəzərdə tutula bilər.

### 3.2. Ailələr üçün təkmilləşdirilmiş mediasiya və münaqişələrin həlli proqramı

Azərbaycanda nikah mübahisələrini strukturlaşdırılmış mediasiya xidmətləri və münaqişələrin həlli mexanizmləri vasitəsilə həll edərək boşanma hallarını azaltmaq və münaqişələrin emosional və maliyyə baxımından zərərli hüquqi mübahisələrə çevrilməsinin qarşısını almaq məqsədi daşıyır. Ailə mediasiyası mübahisələrin həllində, qarşılıqlı anlaşmanın təşviqində və ailə sabitliyinin qorunmasında son dərəcə effektiv bir metoddur. Azərbaycanın Ailə Məcəlləsinin prinsiplərinə əsaslanan və qlobal təcrübələr tərəfindən dəstəklənən bu proqram, hüquqi çərçivələri, peşəkar təlimləri və icma əsaslı resursları birləşdirən hərtərəfli mediasiya sistemini nəzərdə tutur. Məqsəd, ailələri və uşaqları gərgin boşanmanın mənfi təsirlərindən qoruyaraq, cütlüklərə münaqişələri həll etmək üçün konstruktiv yollar təqdim etməkdir.

Mediasiya xidmətlərinin məhkəmə sisteminə inteqrasiyası, hüquqi proseslərə çevrilən boşanma hallarının sayını azaltmaq üçün mühüm bir addımdır. Azərbaycanın Ailə Məcəlləsinin

17.1-ci maddəsinə əsasən, xüsusilə uşaqların iştirak etdiyi hallarda, rəsmi boşanma prosesindən əvvəl barışıq cəhdləri tələb olunur (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 17.1). Lakin, bu müddəa bütün mübahisəli boşanma halları üçün məcburi mediasiya sessiyalarını əhatə edəcək şəkildə genişləndirilə bilər. Bu proses, cütlüklərin məhkəməyə müraciət etməzdən əvvəl ən azı üç strukturlaşdırılmış mediasiya sessiyasında iştirakını tələb edəcəkdir. Bu sessiyalar, maliyyə, valideynlik və ünsiyyət məsələləri ilə bağlı mübahisələrin həllinə yönələcəkdir.

Qlobal təcrübələr, məhkəmə tərəfindən tələb olunan mediasiyanın boşanma ilə bağlı məhkəmə işlərini azaltmaqda effektivliyini sübut edir. Azərbaycanda mediasiya xidmətləri, maliyyə məsələləri, ünsiyyət problemləri və valideynlik mübahisələri kimi nikah münaqişələrinin ümumi mənbələrinə yönələcəkdir. Uşaqların iştirak etdiyi hallarda, mediasiya xüsusilə faydalı olacaq, çünki valideynlər uşağın rifahını prioritetləşdirən qəyyumluq və görüş tənzimləmələrini birgə tərtib edə bilərlər. Daha az qarşıdurmalı bir mühit yaratmaqla mediasiya, qarşılıqlı hörmət, əməkdaşlıq və ailə bütövlüyünün qorunmasını vurğulayan Ailə Məcəlləsinin prinsipləri ilə uyğun gəlir. Bundan əlavə, mediasiya, məhkəmə prosesləri ilə müqayisədə gərginliyi artırmayan, mübahisələrin daha insani və fərdi yanaşma ilə həllini təmin edən üsul təklif edir.

### 3.2.1. Milli mediasiya təlim proqramı

Azərbaycanda ailə mediasiya sisteminin uğuru üçün güclü mediasiya təlim proqramı həyati əhəmiyyət daşıyır. Yüksək keyfiyyətli və mədəni uyğun xidmətlər təmin etmək məqsədilə, mediatorlar ailə mübahisələrinin mürəkkəbliyini idarə etmək üçün hərtərəfli təlim keçməlidir. Mediatorlar həssas situasiyalarda neytral vasitəçi kimi fəaliyyət göstərir və bu, onlardan ixtisaslaşmış bacarıqlar, hüquqi biliklər və mədəniyyətə dair dərin məlumatlılıq tələb edir.

Mədəni həssaslıq: Azərbaycanda mediatorlar ölkənin müxtəlif mədəni, regional və ənənəvi ailə dinamikasını dərindən anlamalıdır. Azərbaycanın cəmiyyət quruluşu geniş ailə strukturlarının və gender rollarının təsiri altında formalaşıb və bunlar şəhər və kənd əraziləri arasında əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, kənd yerlərində mübahisələr tez-tez geniş ailə üzvlərini əhatə edir və bu, münaqişələri kəskinləşdirə bilər, şəhər mübahisələri isə daha çox peşəkar və ailə öhdəliklərinin balanslaşdırılmasına fokuslanır (Ayyubova, 2024). Mediatorlar bu unikal amilləri effektiv şəkildə nəzərə alaraq müzakirələrə rəhbərlik etməli və mədəni normaları əks etdirən, eyni zamanda ədalət və bərabərliyi təşviq edən həll yollarını irəli sürməlidir.

Münaqişələrin həlli texnikaları: Effektiv mediatorlar gərginliyi azaltmaq, məhsuldar dialoq yaratmaq və cütlükləri qarşılıqlı qəbul edilə bilən razılaşmalara yönləndirmək üçün münaqişələrin həlli texnikalarını mənimsəməlidirlər. Təlim proqramları xəyanət, etibarın itirilməsi, uşaqlar və maliyyə ilə bağlı mübahisələr kimi dərin emosional problemlərin həllinə dair metodları əhatə etməlidir (Ayyubova, 2024). Münaqişələrin həlli üzrə bacarıqlara yiyələnmiş mediatorlar mübahisələrin qarşıdurmalı münaqişələrə çevrilməsinin qarşısını ala bilər, bu isə ailələr üçün stressi və emosional zərəri azaldır.

Ailə Dinamikasına Dair Mütəxəssislik: Mediatorlar məişət zorakılığı, valideynlik münaqişələri və maliyyə mübahisələri kimi mürəkkəb ailə problemlərini idarə etmək üçün lazımi təcrübəyə malik olmalıdır. Məsələn, uşaqların qəyyumluğunu əhatə edən mübahisələrdə mediatorlar uşaqların ehtiyaclarını valideynlərin hüquqları ilə tarazlaşdıraraq, uşağın rifahını prioritetləşdirən razılaşmalar hazırlamalıdır. Azərbaycanda boşanmaların əsas səbəblərindən biri olan maliyyə mübahisələrini idarə etmək üçün mediatorlar, cütlükləri Ailə Məcəlləsinin maliyyə prinsiplərinə (Azərbaycan Respublikasının Ailə Məcəlləsi) uyğun olaraq praktiki həll yollarına yönləndirməlidir.

Milli sertifikatlaşdırma proqramı: Mediatorlar üçün milli sertifikatlaşdırma proqramının yaradılması xidmətlərin keyfiyyətini standartlaşdırmaq üçün vacibdir. Sertifikatlaşdırma bütün mediatorların yüksək peşəkar standartlara cavab verməsini və ən yaxşı təcrübələrə riayət etməsini təmin edəcəkdir. Davamlı peşəkar inkişaf və müntəzəm qiymətləndirmələr mediatorların yeni texnikalar və hüquqi tələblərlə ayaqlaşmasını təmin edər. Universitetlər və hüquqi institutlarla tərəfdaşlıq Azərbaycana uyğunlaşdırılmış mediator sertifikatlaşdırma proqramının hazırlanmasını dəstəkləyə bilər.

İcma Əsaslı Mediasiya Mərkəzləri İcma əsaslı mediasiya mərkəzləri münaqişələrin həllini ailələr üçün, xüsusilə kənd yerlərində və zəif təmin olunmuş ərazilərdə əlçatan və sərfəli etmək baxımından mühüm rol oynayır. Bu mərkəzlər ailələrə daha qeyri-rəsmi və dəstək göstərən mühitdə mübahisələri həll etmək imkanı təqdim edərək, məhkəmə proseslərinə alternativ təklif edər.

Əlçatan xidmətlər: Mediasiya xidmətləri bütün sosial-iqtisadi qruplar üçün əlçatan olmalıdır. Xüsusilə kənd yerlərində subsidiyalı və ya pulsuz mediasiya sessiyaları maliyyə baryerlərinin ailələrin kömək əldə etməsinə mane olmasının qarşısını alacaqdır. Bu yanaşma, Avstraliyanın pulsuz və sərfəli mediasiya xidmətləri təqdim edən və uşaqların qəyyumluğu ilə

bağlı məhkəmə işlərinin sayını 50% azaldan Ailə Münasibətləri Mərkəzləri kimi uğurlu beynəlxalq modellərlə uyğunluq təşkil edir.

Çoxsahəli qruplar: İcma əsaslı mərkəzlər, ailə mübahisələrinin çoxşaxəli xüsusiyyətinə uyğun yanaşma təmin etmək üçün psixoloqlar, hüquq mütəxəssisləri və sosial işçilər kimi müxtəlif sahələrdən mütəxəssisləri cəlb etməlidir. Psixoloqlar emosional dəstək və psixi sağlamlıq məsələlərini həll edə bilər, hüquqşünaslar hüquqi hüquq və öhdəliklər barədə aydınlıq gətirə bilər, sosial işçilər isə praktiki məsləhətlər verə və ailələri resurslarla əlaqələndirə bilər (Ayyubova, 2024). Bu holistik yanaşma, mediasiya zamanı ailələrin hərtərəfli dəstək almasını təmin edər.

Məhkəmə önü mediasiya: Cütlükləri mübahisələri məhkəmə öncəsi mediasiya vasitəsilə həll etməyə təşviq etmək məhkəmələrin yükünü əhəmiyyətli dərəcədə azalda və dostyana həll yollarını təşviq edə bilər. Məhkəmə önü mediasiya cütlüklərə münaqişələri qarşıdurmasız bir mühitdə həll etməyə imkan verərək, gərginliyin artmasının qarşısını alır və əməkdaşlığı gücləndirir.

Uğurlu modellərin uyğunlaşdırılması: Azərbaycan Avstraliyanın Ailə Münasibətləri Mərkəzləri modelini öz mədəni və hüquqi kontekstinə uyğunlaşdıraraq tətbiq edə bilər. Belə mərkəzlərin kənd bölgələrində yaradılması, ənənəvi ailə strukturlarının mübahisələri daha da çətinləşdirdiyi sahələrə prioritet verərək, ölkə üzrə bərabər əlçatanlığı təmin edər.

### 3.3. Cinsi bərabərlik və maliyyə bərabərliyi maddələrini əhatə edən hüquqi nikah müqaviləsi

Gender bərabərliyi və maliyyə bərabərliyi maddələrini əhatə edən hüquqi nikah müqaviləsinin tətbiqi, Azərbaycanda nikah mübahisələrinin əsas mənbələrini həll etmək üçün güclü bir çərçivə təmin edəcəkdir. Azərbaycanın Ailə Məcəlləsinə əsaslanan bu müqavilələr, həyat yoldaşlarının hüquq və vəzifələrini aydın şəkildə müəyyən etməklə ədaləti, şəffaflığı və qarşılıqlı hörməti təşviq edir. Bu cür müqavilələr münaqişələrin qarşısını almaq, güc balanssızlıqlarını azaltmaq və həssas tərəflər üçün hüquqi müdafiə təmin etməklə sağlam və daha ədalətli nikah münasibətlərini dəstəkləyir.

Standartlaşdırılmış nikah müqaviləsi, nikah tərəfdaşlığı üçün əsas müddəaları müəyyən edən baza sənədi rolunu oynayacaq. Bu müddəalar, əmlak mülkiyyəti, maliyyə öhdəlikləri və qərar qəbuletmə məsuliyyətləri ilə bağlı aydın qaydaları əhatə etməli, qarşılıqlı hesabatlılığı təmin etməlidir. Azərbaycanın Ailə Məcəlləsinin 19-ci maddəsi ailə maliyyəsinə birgə mülkiyyət və

töhfələr prinsiplərini təsbit edir və nikah müqaviləsi bu prinsipləri genişləndirərək nikah və boşanma zamanı əmlak bölgüsü və maliyyə planlamasına dair konkret maddələri daxil edə bilər (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 19). Birgə qərar qəbuletmə maddələri, hər iki tərəfin ailənin əsas məsələlərində bərabər hüquqa malik olmasını təmin edərək münaqişələri azalda və əməkdaşlıq münasibətlərini təşviq edə bilər.

Müqavilə, həmçinin hər bir cütlüyün unikal dəyərlərini və prioritetlərini əks etdirmək üçün əlavə maddələrə icazə verməlidir. Məsələn, tərəflər birgə ev işləri, uşaq tərbiyəsinə yanaşmalar və ya konkret dini təcrübələr barədə razılığa gələ bilərlər. Bu cür çeviklik müqavilənin Azərbaycanın mədəni və regional müxtəlifliyi boyunca aktuallığını təmin edir. Cütlükləri nikahdan əvvəl müqavilələrini müzakirə etməyə və fərdiləşdirməyə təşviq etmək, güclü tərəfdaşlıq üçün zəruri olan ünsiyyət və qarşılıqlı anlaşmanı da inkişaf etdirəcəkdir.

Maliyyə şəffaflığı nikah müqaviləsinin digər mühüm komponentidir. Maliyyə ilə bağlı gələcək mübahisələrin qarşısını almaq üçün nikahdan əvvəl bütün aktivlərin və borcların tam açıqlanması məcburi olmalıdır. Bu tələb, boşanma zamanı əmlak bölgüsünü tənzimləyən Ailə Məcəlləsinin 22-ci maddəsi ilə uyğun gəlir (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 22).

Gender bərabərliyini təşviq etmək üçün nikah müqaviləsi, hər iki həyat yoldaşı üçün bərabər hüquq və imkanları təmin edən maddələri ehtiva etməlidir. Bu maddələr məşğulluq imkanlarına bərabər çıxış, uşaq tərbiyəsi və ev idarəçiliyi üzrə birgə məsuliyyətlər, maliyyə planlaşdırmasında, köçürülmə qərarlarında və uşaqların sağlamlığı ilə bağlı qərarlarda birgə iştirak kimi məsələləri əhatə etməlidir. Ailə Məcəlləsinin 29-cu maddəsi, həyat yoldaşları arasında qarşılıqlı hörmət və tərəfdaşlığı vurğulayır və bu, nikah müqavilələrində gender bərabərliyinin inteqrasiyası üçün güclü hüquqi baza yaradır (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 29). Bundan əlavə, müqavilə, hər iki tərəfin fərdi müstəqilliyini qoruyaraq, nikaha bərabər töhfə verməsini təmin etməklə maliyyə və emosional istismarın qarşısını almalıdır.

Ailə münasibətlərindəki balanssızlıqları aradan qaldırmaq üçün həssas tərəflər üçün hüquqi təminatlar mühüm əhəmiyyət daşıyır. Bu təminatlar, boşanma hallarında iqtisadi cəhətdən asılı tərəfləri—çox vaxt qadınları—qorumaq və uşaqların ehtiyaclarını qarşılamaq üçün aliment və uşağa baxım məsələlərinə dair konkret müddəaları əhatə etməlidir. Ailə Məcəlləsinin 36-cı maddəsi valideynlərin uşaqlarına maliyyə öhdəliklərini təsbit edir və bu, nikah müqavilələrində asılı tərəflərə dəstəyi daxil etmək üçün daha da gücləndirilə bilər (Azərbaycan Respublikasının

Ailə Məcəlləsi, Maddə 36). Bundan əlavə, müqavilənin davamlı aktuallığını və ədalətini təmin etmək üçün, məsələn, uşağın doğulması və ya mühüm maliyyə dəyişiklikləri kimi ailə vəziyyətindəki dəyişikliklər əsasında yenilənmə və ya dəyişiklik mexanizmləri əlavə edilməlidir.

Beynəlxalq təcrübələr hüquqi nikah müqavilələrinin potensial təsirlərinə dair dəyərli məlumatlar təqdim edir. Məsələn, Fransada standartlaşdırılmış nikah müqavilələri boşanma proseslərində maliyyə mübahisələrini minimuma endirərək, əmlak hüquqlarını və öhdəliklərini aydın şəkildə müəyyən etmişdir. İsveçdə gender bərabərliyinə və birgə valideyn məsuliyyətlərinə yönəlmiş nikah müqavilələri ev təsərrüfatı və maliyyə vəzifələrinin daha balanslı bölgüsünə töhfə vermişdir.

## 4. Təklifin qiymətləndirilməsi

### 4.1. Hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramı

Hərtərəfli Ailə Dəstəyi və Nikaha Hazırlıq Proqramı, ailə qeyri-sabitliyinin əsas səbəblərini sistematik şəkildə hədəfləyən və onların uzunmüddətli həllini təmin etməyə yönəlmiş genişmiqyaslı bir təşəbbüsdür. Proqram çərçivəsində maliyyə qeyri-sabitliyi, zəif ünsiyyət və nikah məsuliyyətlərinə dair kifayət qədər təhsilin olmaması kimi əsas problemlər aradan qaldırılmağa çalışılır. Bu strategiya ailələri daha dayanıqlı və davamlı münasibətlər qurmağa təşviq edərək, boşanma hallarının azaldılmasını hədəfləyir. Proqramın əsas istiqamətləri arasında psixoloji dəstək, maliyyə savadlılığı təhsili və ictimai maarifləndirmə kampaniyaları yer alır ki, bunlar ailə institutunun möhkəmlənməsinə və cütlüklərin nikaha daha hazırlıqlı şəkildə daxil olmasına imkan yaradır.

Bu proqramın effektivliyi beynəlxalq araşdırmalarda geniş şəkildə sənədləşdirilmişdir. Tədqiqatlar göstərir ki, strukturlaşdırılmış nikahdan əvvəl təhsil proqramları boşanma ehtimalını əhəmiyyətli dərəcədə azalda bilər. Azərbaycanın mövcud hüquqi çərçivəsi – xüsusilə Ailə Məcəlləsinin 19 və 21-ci maddələri – ailə sabitliyinin əsas prinsiplərini vurğulayır və bu kontekstdə nəzərdə tutulan proqram həmin prinsiplərlə tam uyğunluq təşkil edir. Proqram çərçivəsində həyata keçirilən məsləhət sessiyaları və ünsiyyət seminarları cütlüklərin nikah müddətində qarşılaşa biləcəyi çətinlikləri səmərəli şəkildə idarə etmələrinə kömək edərək, ailədaxili münaqişələrin yaranma ehtimalını azaldır.

Proqramın uğurlu tətbiqi üçün müxtəlif resursların səfərbər edilməsi tələb olunur. İlk növbədə, ixtisaslı məsləhətçilərin hazırlanması, dəstək xidmətləri üçün infrastrukturun yaradılması

və ictimai maarifləndirmə kampaniyalarının keçirilməsi üçün ilkin investisiyaların təmin olunması vacibdir. Lakin uzunmüddətli perspektivdə bu cür proqramların sosial və iqtisadi faydaları sərf olunan resursları üstələyəcəkdir. Caspian Hüquq Mərkəzi tərəfindən aparılmış araşdırmalara görə, dövlət tərəfindən gənc ailələr üçün subsidiyalaşdırılmış mənzil proqramları boşanma ehtimalını 20%-ə qədər azaldıb. Bu fakt göstərir ki, hədəfli dəstək təşəbbüsləri ailə sabitliyində ölçülə bilən irəliləyişlər yarada bilər.

Bu təşəbbüs kənd və şəhər əraziləri arasındakı fərqləri nəzərə alaraq, ailə dəstəyi xidmətlərinə çıxış imkanlarını bərabərləşdirməyə yönəlmişdir. Xüsusilə kənd yerlərində məsləhət xidmətlərinə və nikah təhsilinə çıxış məhduddur və bu, ailə münaqişələrinin həlli imkanlarını məhdudlaşdırır. Ənənəvi norma və dəyərlərin dominant olduğu bölgələrdə ailədaxili problemlər çox vaxt açıq müzakirə edilmir və bu, münaqişələrin daha da dərinləşməsinə səbəb ola bilər. Yerli hüquq ekspertləri ilə aparılan müsahibələrə əsasən, erkən nikahlar və iqtisadi çətinliklər kənd yerlərində ailə münasibətlərinə ciddi təsir edir. Bu səbəbdən, proqramın məhz bu icmalara yönəlməsi ailə qeyri-sabitliyinin aradan qaldırılmasına mühüm töhfə verə bilər. Kənd yerlərində seminarların və məsləhət xidmətlərinin daha əlçatan olması ailələrin vacib resurslara bərabər çıxışını təmin edərək onların rifahını yüksəldə bilər (Bagirova və Ayyubova, 2024).

Proqramın effektiv və davamlı şəkildə icra olunması üçün dövlət qurumları ilə qeyri-hökumət təşkilatları (QHT) arasında əlaqələndirilmiş səylərin həyata keçirilməsi vacibdir. Azərbaycanın mövcud hüquqi çərçivəsi ailə sabitliyini dəstəkləsə də, bu cür proqramların tam miqyaslı tətbiqini təmin etmək üçün əlavə qanunvericilik tələblərinin nəzərdən keçirilməsi zəruridir. İcma təşkilatları və dini qurumlarla əməkdaşlıq xüsusilə mühafizəkar bölgələrdə maarifləndirmə və proqram iştirakını artırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu proqramın maliyyələşdirilməsi məsələsi yalnız dövlət və ya QHT-lərin üzərinə qoyulmamalıdır.

Davamlı və genişmiqyaslı bir proqramın həyata keçirilməsi üçün müxtəlif maliyyələşdirmə mənbələrinin birləşdirilməsi vacibdir. Buraya dövlət və özəl sektor əməkdaşlığı, beynəlxalq donorlar, korporativ sosial məsuliyyət layihələri və ictimai-özəl tərəfdaşlıq (PPP) modelləri daxil edilə bilər. Böyük şirkətlər sosial məsuliyyət təşəbbüsləri çərçivəsində bu tip layihələrə dəstək verə bilərlər. Bundan əlavə, cütlüklərin təlimlərə minimal ödənişlə qoşulmaq imkanı yaradılması proqramın uzunmüddətli maliyyə dayanıqlılığını təmin edə bilər. Maliyyə çətinlikləri olan ailələr üçün subsidiya və qrant mexanizmləri tətbiq edilə bilər ki, bu da sosial ədalət prinsipinin

qorunmasına xidmət edər. Bu yanaşma proqramın uzunmüddətli fəaliyyətini təmin edərək, maliyyə yükünün yalnız dövlət və ya QHT-lər üzərində qalmasının qarşısını alacaqdır.

Bundan əlavə, proqramın elastikliyi və regional xüsusiyyətlərə uyğunlaşması onun uğurlu tətbiqinin əsas şərtlərindən biridir. Kənd və şəhər icmalarının spesifik ehtiyaclarını nəzərə alan fərdiləşdirilmiş modulların tətbiqi proqramın daha geniş auditoriyaya çatmasını təmin edəcəkdir. Məsələn, kənd yerlərində əsas diqqət ailə və təsərrüfat məsuliyyətlərinin balanslaşdırılmasına yönələcəksə, şəhər ərazilərində iş və şəxsi həyat arasındakı tarazlıq, ünsiyyət bacarıqları və stressin idarə edilməsi əsas prioritetlərdən biri olacaqdır. Bu fərdiləşdirilmiş yanaşma programın müxtəlif sosial-iqtisadi qruplar üçün aktual olmasını təmin edəcək və onun effektivliyini artıracaqdır.

Bu proqramın reallaşdırılması, sosial inteqrasiyanı və ailə rifahını artıraraq, cəmiyyətin ümumi stabilliyinə töhfə verəcəkdir. Təklif olunan strategiyalar yalnız boşanma hallarını azaltmaqla kifayətlənməyəcək, eyni zamanda ailə institutunun güclənməsinə, yeni qurulan ailələrin daha dayanıqlı olmasına və nikahların uzunömürlülüyünün təmin edilməsinə şərait yaradacaqdır.

### 4.2. Tövsiyyə olunan həll

Araşdırmada Azərbaycanda boşanma hallarının artmasının qarşısını almaq və ailə sabitliyini gücləndirmək üçün üç əsas həll yolu qiymətləndirilmişdir. Bunlar hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramı, maliyyə sabitliyini dəstəkləyən sosial yardım paketi və münaqişələrin qarşısını alan hüquqi mediasiya sistemi olmuşdur. Hər üç həll yolu nikahda qarşıya çıxan problemləri müxtəlif aspektlərdən həll etməyə yönəlmişdir. Lakin onların arasında hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramı daha kompleks və dayanıqlı təsir göstərdiyi üçün əsas tövsiyə olunan həll yolu kimi seçilmişdir. Bu proqramın üstünlüyü ondadır ki, o, boşanma hallarını yalnız hüquqi və ya maliyyə məsələləri üzərindən deyil, həm də psixoloji, sosial və təhsil aspektlərindən yanaşaraq ailələri hərtərəfli dəstəkləməyi hədəfləyir.

Bu proqramın seçilməsində əsas amillərdən biri onun boşanma hallarına təsir edən əsas səbəbləri eyni anda həll etməyə imkan verməsidir. Nikahdan əvvəl və nikah müddətində cütlüklərə verilən məsləhət xidmətləri, ünsiyyət və münaqişə həll etmə bacarıqlarının inkişafı, maliyyə sabitliyi üçün dəstək mexanizmləri və hüquqi resurslara çıxış imkanı proqramın effektivliyini artırır. Müqayisə üçün, yalnız maliyyə yardımı və ya yalnız mediasiya sisteminə yönəlmiş həll

yolları məhdud təsir göstərir, çünki bu problemlərin yaranmasına gətirib çıxaran əsas faktorlar – ünsiyyət çatışmazlığı, sosial təsirlər və iqtisadi qeyri-sabitlik – bir-biri ilə bağlıdır.

Proqramın əsas komponentlərindən biri nikahdan əvvəl təhsil və sertifikatlaşdırmadır. Bu yanaşma, cütlüklərə evlilik müddətində qarşılaşacaqları çətinlikləri daha yaxşı başa düşməyə və bunlarla səmərəli mübarizə aparmağa kömək edir. Münaqişələrin həlli, maliyyə idarəetməsi və valideynlik bacarıqları kimi mövzular üzrə keçirilən təlimlər cütlüklərin münasibətlərini daha sağlam şəkildə qurmasına şərait yaradır. Bununla yanaşı, bu təlimlərin məcburi deyil, könüllü şəkildə təşviq edilməsi vacibdir. Çünki məcburi tədbirlər bəzən əks reaksiya doğura bilər və insanların bu təlimlərə marağını azalda bilər. Bu səbəbdən, nikahdan əvvəl təhsil sisteminə daha yumşaq yanaşmaq və onu həvəsləndirici tədbirlərlə birləşdirmək tövsiyə olunur. Misal üçün, bu proqramlarda iştirak edən cütlüklər üçün dövlət tərəfindən müəyyən güzəştlər və ya dəstək mexanizmləri nəzərdə tutula bilər. Bu həm cütlükləri təlimlərə cəlb edər, həm də onların nikaha daha hazırlıqlı başlamasına kömək edər.

Maliyyə sabitliyi də proqramın əsas dayaqlarından biridir. Nikahda ən çox rast gəlinən problemlərdən biri maliyyə gərginliyidir. Araşdırmalar göstərir ki, ailədaxili münaqişələrin böyük bir hissəsi maliyyə qeyri-sabitliyi ilə bağlıdır. Bu proqram çərçivəsində subsidiyalı mənzil kreditləri, aşağı faizli ipoteka imkanları və yeni ailələr üçün sosial dəstək paketləri kimi mexanizmlər təklif olunmalıdır. Bununla yanaşı, cütlüklər üçün maliyyə savadlılığı üzrə təlimlər də keçirilməlidir ki, onlar gələcəkdə öz büdcələrini daha effektiv idarə edə bilsinlər.

Hüquqi və sosial dəstək xidmətləri də proqramın mühüm hissəsidir. Nikah problemlərinin həllində mediasiya və hüquqi dəstək mühüm rol oynayır. Boşanma hallarının məhkəməyə çıxmadan həll olunması üçün peşəkar mediasiya xidmətlərinin mövcudluğu vacibdir. Bu xidmətlər çərçivəsində cütlüklər münasibətlərini qorumaq və ya boşanma prosesində daha az psixoloji və maliyyə yükü ilə üzləşmək üçün dəstək almalıdırlar. Hüquqi məsələlərə gəlincə, ailə hüququ üzrə mütəxəssislərin və psixoloqların iştirakı ilə pulsuz hüquqi məsləhət xidmətləri təşkil edilə bilər. Bunun sayəsində boşanmaq qərarına gələn cütlüklər, xüsusilə də qadınlar və uşaqlar, sosial və hüquqi baxımdan daha yaxşı müdafiə oluna bilər.

Bütün bu tədbirlərin uşaqların rifahına təsiri də nəzərə alınmalıdır. Uşaqlar boşanmalardan ən çox təsirlənən qruplardan biridir və bu vəziyyət onların sosial və akademik inkişafına ciddi təsir göstərə bilər. Proqram çərçivəsində boşanmış valideynlərə birgə valideynlik təlimləri, psixoloji

dəstək və sosial reabilitasiya imkanları təklif edilməlidir ki, uşaqların mənfi təsirlərdən minimum səviyyədə qorunması təmin olunsun.

Bu həll yolunun üstünlükləri nələrdir?

Digər yanaşmalarla müqayisədə "Hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramı" boşanma hallarının səbəblərini dərinlikdə araşdıraraq həm preventiv (qabaqlayıcı), həm də müdaxilə xarakterli tədbirlər təklif edir. Müqayisə üçün, yalnız maliyyə yardımı təqdim edən proqramlar bir ailənin iqtisadi vəziyyətini müvəqqəti yaxşılaşdıra bilər, lakin bu, ailədaxili ünsiyyət problemlərini həll etməz. Digər tərəfdən, yalnız hüquqi mediasiya üzərində fokuslanan yanaşma münaqişələrin həlli üçün faydalı olsa da, cütlüklərin problemlərinin kökündən qarşısını almağa yönəlmədiyi üçün tam təsirli olmaya bilər.

# 5. Nəticə

## 5.1. Xülasə

Bu tədqiqat Azərbaycanda boşanma hallarının artmasının çoxsahəli səbəblərini araşdıraraq ailə sabitliyinə təsirlərini təhlil etmişdir. Şəhərləşmə, sosial medianın təsiri, erkən nikahlar, ailədaxili zorakılıq və sadələşdirilmiş boşanma qanunları boşanma hallarını artıran əsas faktorlardır. Şəhərləşmə ənənəvi ailə dəyərlərinin zəifləməsinə və fərdiyyətçiliyin artmasına səbəb olmuşdur. Sosial media münasibətlərdə qısqanclıq və etimadsızlığı artırmaqla yanaşı, reallıqdan uzaq gözləntilər yaradır. Erkən nikahlar və ailədaxili zorakılıq ailə sabitliyini pozur və sosial cəhətdən həssas qrupları daha çox təsir altına alır. Sadələşdirilmiş boşanma qanunları isə cütlüklərin daha rahat boşanmasına imkan yaratmışdır ki, bu da ailə strukturunun zəifləməsi ilə nəticələnmişdir.

Araşdırma nəticəsində boşanma hallarının azaldılması üçün üç əsas həll yolu təklif edilmişdir: hərtərəfli ailə dəstəyi və nikaha hazırlıq proqramı, təkmilləşdirilmiş ailə mediasiyası xidmətləri, və hüquqi nikah müqavilələrinin tətbiqi. Bu həll yollarının hər biri ailə sabitliyini artırmaq üçün konkret yanaşmalar təqdim edir. Təkliflər arasında Hərtərəfli Ailə Dəstəyi və Nikaha Hazırlıq Proqramı ən təsirli və hərtərəfli yanaşma kimi seçilmişdir. Bu proqram ailə problemlərinin əsas səbəblərini, o cümlədən maliyyə gərginliyi, zəif ünsiyyət və nikah məsuliyyətləri ilə bağlı biliklərin çatışmazlığını həll edir. Nikahdan əvvəl hazırlıq, psixoloji məsləhətlər, maliyyə savadlılığı təhsili və ictimai maarifləndirmə kampaniyaları vasitəsilə proqram ailə sabitliyini gücləndirir və uzunmüddətli sosial və iqtisadi faydalar yaradır.

Bu yanaşma nikahdan əvvəl təlimi məcburi edərək cütlükləri daha yaxşı hazırlamaq, maliyyə yardımları vasitəsilə iqtisadi təzyiqləri azaltmaq və münasibətlərdə effektiv ünsiyyət və münaqişələrin həllini təşviq etməyi nəzərdə tutur. Araşdırmalar göstərir ki, bu cür hərtərəfli tədbirlər nikahların möhkəmlənməsinə və boşanma hallarının əhəmiyyətli dərəcədə azalmasına səbəb ola bilər. Azərbaycanın Ailə Məcəlləsi və beynəlxalq təcrübələrlə uyğunlaşdırılmış bu proqram preventiv yanaşması ilə ailə dinamikasındakı mövcud çatışmazlıqları aradan qaldırmaq və gələcəkdə bu problemlərin qarşısını almaq potensialına malikdir. Ailə institutunun möhkəmlənməsi Azərbaycan cəmiyyətində həm sosial, həm də iqtisadi sabitliyi artıracaqdır.

### 5.2. Tövsiyyələr

1. Nikahdan əvvəl məcburi təhsil və sertifikatlaşdırma

Nikah qeydiyyatı üçün hüquqi şərt kimi məcburi nikahdan əvvəl təhsil proqramı tətbiq edilməsi effektivdir. Proqram münaqişələrin həlli, maliyyə idarəetməsi və valideynlik bacarıqları kimi əsas mövzuları əhatə etməli, cütlükləri nikah məsuliyyətlərinə yaxşı hazırlamalıdır.

2. Hədəfli maliyyə yardımı

Yeni ailələr üzərindəki iqtisadi təzyiqləri azaltmaq üçün subsidiyalı mənzillər, aşağı faizli kreditlər və nikah qeydiyyatı xərclərinin azaldılması kimi maliyyə yardımı təqdim edilə bilər. Bu təşviqlər xüsusilə aşağı gəlirli ailələr və kənd icmalarını prioritetləşdirərək bərabərliyi və iştirak səviyyəsini artırmalıdır.

3. Ölkə miqyasında ailə dəstəyi mərkəzləri

Şəhər və kənd ərazilərində ailə dəstəyi mərkəzləri yaradaraq məsləhət, mediasiya və davamlı təhsil xidmətləri təmin edilə bilər. Bu mərkəzlər təlim keçmiş mütəxəssislər tərəfindən idarə olunmalı və yerli icma ehtiyaclarına uyğunlaşdırılmış mədəni baxımdan həssas xidmətlər təqdim etməlidir.

4. İctimai maarifləndirmə kampaniyaları

Proqramın faydalarını ictimaiyyətə çatdırmaq və xüsusilə ənənəvi icmalarda müqaviməti azaltmaq üçün geniş maarifləndirmə kampaniyaları həyata keçirilə bilər. Müxtəlif demoqrafik qruplara effektiv şəkildə çatmaq üçün sosial media, yerli media kanalları və icma tədbirlərindən istifadə edin.

5. İzləmə və qiymətləndirmə çərçivəsi

Boşanma halları və ailə sabitliyi üzərində proqramın təsirini izləmək üçün güclü izləmə və qiymətləndirmə sistemi yaradıla bilər. Məlumatlardan istifadə edərək proqramın məzmunu, çatdırılma üsulları və maarifləndirmə strategiyalarını təkmilləşdirərək davamlı inkişafı və aktuallığı təmin edin.

## İstinadlar


Azərbaycan Respublikasının Konstitusiyası, https://e-qanun.az/framework/897

Azərbaycan Respublikasının Ailə Məcəlləsi. (1999, December 28). *Azərbaycan Respublikası Qanunvericilik Toplusu.* Retrieved from https://e-qanun.az/framework/46946

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Nikah və boşanma statistik məlumatları: 2023-cü il üzrə hesabat.* Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi.

Bayramov, T. (2021). Dynamics of Marriages & Divorces by Settlements in the Economic-Geographic Region of Guba-Khachmaz. *Equinox Journal of Economics Business and Political Studies, 8*(1), 46-63.

Dadaşova, İ. (t.y.). *Boşanma Səbəbləri və Psixoloji Müdaxilələr.* Respublika Psixiatriya Xəstəxanası, Respublika Psixiatriya Xəstəxanasının psixoloqu.

Əsədov, K (2024). *Qızların təhsildən yayınmasının başlıca səbəbləri*. Təhsil üzrə ekspert.

Əliyev. R. (2024). *Nikahın pozulması ilə bağlı müraciət edənlərin əksəriyyəti qadınlardır - Araşdırma.* Manset.az.

İsmayılzadə, Q. (2024). *Azərbaycanda Boşanma Prosesi.* İsmayilzade.az.

Səfərova, X. (2010). *Boşanmaların səbəbləri və ailə dəyərlərinin dəyişməsi.*Retrieved from https://www.anl.az/down/meqale/palitra/2010/mart/109708.htm